UHY AUDİT MMC

"Çinar Plaza" Biznes Mərkəzi,
25-ci mərtəbə, Heydər Əliyev
prospekti 152, AZ1029,
Bakı, Azərbaycan

Tel +994 (12) 480 13 62
E-poçt info@uhy-az.com
Veb www.uhy-az.com

**MÜSTƏQİL AUDİTORUN HESABATI**

"Dövlət Dəniz və Liman Agentliyi" Publik Hüquqi Şəxsin İdarə Heyətinə:

**Şərti Rəy**

Biz, "Dövlət Dəniz və Liman Agentliyi" Publik Hüquqi Şəxsin (bundan sonra "Agentlik" adlandırılacaq) 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixlərdə başa çatan il üzrə məcmu gəlir haqqında hesabatdan, kapitalda dəyişikliklər haqqında hesabatından və pul vəsaitlərinin hərəkəti haqqında hesabatdan, habelə uçot siyasətinin təsviri və digər izahedici qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışıq.

Hesab edirik ki, əlavə edilmiş maliyyə hesabatları, "Şərti Rəy üçün Əsaslar" bölməsində qeyd edilən məsələnin mümkün təsirləri istisna olmaqla, Agentliyin 31 dekabr 2022-ci il tarixinə maliyyə vəziyyətini, habelə həmin tarixlərdə başa çatan il üzrə maliyyə nəticələrini və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlər baxımından düzgün əks etdirir.

**Şərti Rəy üçün Əsaslar**

Biz auditi Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Bu standartlar üzrə bizim məsuliyyətlərimiz əlavə olaraq hesabatımızın "Maliyyə Hesabatlarının Auditinə görə Auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Biz maliyyə hesabatlarının auditinə aid olan etik normalar üzrə Mühasiblərin Beynəlxalq Etika Standartları Şurasının mühasiblər üçün dərc etdiyi "Etika məcəlləsinin" (MBESŞ məcəlləsi) tələblərinə uyğun olaraq Agentlikdən asılı deyilik və biz digər etik öhdəliklərimizi və MBESŞ məcəlləsinin tələblərini yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutları şərti rəyimizi əsaslandırmaq üçün yetərli və münasibdir.

Əlavə edilmiş maliyyə hesabatlarının 1 saylı Qeydində göstərildiyi kimi, Agentlik Azərbaycan Respublikasının Prezidentinin "Dəniz nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" 11 oktyabr 2021-ci il tarixli Fərmanına əsasən, Dövlət Dəniz Agentliyinin, habelə Dövlət Dəniz Agentliyinin tabeliyində olmuş Dəniz Üzgüçülüyünün Təhlükəsizliyi Mərkəzi, eləcə də Nəqliyyat və Texniki-Təminat İdarəsi publik hüquqi şəxslərin birləşməsi əsasında Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində yaradılmışdır. Biz, birləşmə prosesindən sonrakı dövrdə Agentliyin auditoru təyin edilməyimiz səbəbindən 31 dekabr 2021-ci il tarixinə mal-material ehtiyatlarının fiziki sayılması prosesini müşahidə etməmişik. Bu səbəbdən Maliyyə hesabatlarının tərkibində göstərilmiş 31 dekabr 2021-ci il tarixinə mal-material ehtiyatlarının qalıq dəyəri üzrə maliyyə məlumatlarının tamlığı ilə bağlı rəy bildirə bilmirik. Bu məsələnin əlavə olunmuş Maliyyə hesabatlarına təsiri nüfuzedici deyildir. Bizim rəyimiz bu məsələ ilə bağlı şərtlənir.

**Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İqtisadi Subyektin İdarə Edilməsinə Cavabdeh olan Səlahiyyətli Şəxslərin Məsuliyyəti**

Rəhbərlik bu maliyyə hesabatlarının Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhrif olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladığı zaman, rəhbərlik Agentliyi ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Agentliyin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunun fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslər Agentliyin maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət edilməsinə görə məsuliyyət daşıyır.

**Maliyyə Hesabatlarının Auditinə görə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz təqdim edilmiş maliyyə hesabatlarında bir tam kimi, saxtakarlıq və ya xətalar nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimiz daxil olan auditor hesabatını dərc etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin bu səviyyədə olan əminlik də əhəmiyyətli təhriflər mövcud olduğu hallarda, BAS-lara uyğun olaraq aparılmış auditin belə təhrifləri həmişə aşkarlayacağına zəmanət vermir. Təhriflər saxtakarlıq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda, əhəmiyyətli hesab edilir.

BAS-ların tələblərinə uyğun olaraq aparılan auditin bir hissəsi kimi biz audit aparılan zaman peşəkar mühakimə tətbiq edirik və peşəkar skeptisizm nümayiş etdiririk. Biz həmçinin:

- Maliyyə hesabatlarında saxtakarlıq və ya xətalar nəticəsində əhəmiyyətli təhriflər risklərini müəyyən edib qiymətləndiririk, bu risklərə cavab verən audit prosedurlarını layihələndirib həyata keçiririk və rəyimizi əsaslandırmaq üçün yetərli və münasib audit sübutlarını əldə edirik. Saxtakarlıq nəticəsində əhəmiyyətli təhrifi aşkarlamamaq riski xətalar nəticəsindəkindən daha yüksəkdir, çünki saxtakarlıq sözləşmə, dələduzluq, qərəzli hərəkətsizlik, həqiqətə uyğun olmayan məlumatlardan və ya daxili nəzarətin kobudcasına pozulmasından ibarət ola bilər;
- Agentliyin daxili nəzarətin səmərəliliyinə dair rəy bildirmək məqsədi üçün olmamaq şərtilə, bu şəraitlərdə uyğun olan audit prosedurlarını layihələndirmək üçün auditə aid daxili nəzarəti başa düşürük;
- İstifadə edilmiş uçot siyasətinin uyğunluğunu və rəhbərlik tərəfindən həyata keçirilən uçot qiymətləndirmələrinin və əlaqəli məlumatların açıqlanmasının məntiqliliyini qiymətləndiririk;
- Mühasibat uçotunun fasiləsizlik prinsipinin rəhbərlik tərəfindən istifadə edilməsinin uyğunluğuna və əldə edilən audit sübutlarının əsasında Agentliyin fəaliyyətini fasiləsiz davam etmək imkanını ciddi şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmadığına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olduğu haqqında nəticə çıxardığımız halda, auditor hesabatımızda maliyyə hesabatlarındakı əlaqəli məlumatların açıqlanmasına diqqət yetirməliyik və ya belə məlumatların açıqlanması kifayət olmadığı halda, rəyimizə dəyişiklik etməliyik. Nəticələrimiz auditor hesabatımızın tarixinədək əldə edilən audit sübutlarına əsaslanmalıdır. Lakin sonrakı hadisələr və ya şəraitlər Agentliyin fasiləsiz fəaliyyətinin dayandırılmasına səbəb ola bilər;
- Məlumatların açıqlanması da daxil olmaqla, maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə əsas əməliyyatların və hadisələrin maliyyə hesabatlarında ədalətli təqdim edilib-edilmədiyini qiymətləndiririk.

Biz iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə digər məsələlərlə yanaşı auditin planlaşdırılmış həcmi və müddətləri, habelə əhəmiyyətli audit sübutları, o cümlədən audit apardığımız zaman daxili nəzarətdə aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlar haqqında məlumat veririk.

Biz həmçinin iqtisadi subyektin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərə bəyanat veririk ki, müstəqilliyə və müstəqilliyimizə təsir etməsi əsaslandırılmış şəkildə güman edilən bütün əlaqələr və digər məsələlərə, habelə müvafiq olduğunda əlaqəli qorunma tədbirləri haqqında məlumat verməyimizə dair müvafiq etik normalarına riayət etmişik.

Agentliyin idarə edilməsinə cavabdeh olan səlahiyyətli şəxslərin nəzərinə çatdırılmış məsələlərdən biz cari dövr üzrə maliyyə hesabatlarının ən əhəmiyyətli və bu səbəbdən əsas audit məsələləri olanları müəyyən edirik. Bu məsələnin ictimaiyyətə açıqlanmasına qanun və ya qaydalarla yol verilmədiyi halda və ya, çox nadir hallarda, məsələ haqqında hesabatda məlumat vermənin mənfi təsirlərinin onun ictimaiyyət üçün faydalarından çox olacağı əsaslandırılmş şəkildə güman edildiyinə görə biz bu məsələ haqqında hesabatımızda məlumatın verilməməsini qərara almadığımız halda, biz bu məsələləri auditor hesabatında təsvir edirik.

UHY AUDIT LLC

25 aprel 2023-cü il

Bakı, Azərbaycan Respublikası

Azərbaycan Respublikası Məhdud Məsuliyyətli Cəmiyyəti UHY AUDIT Limited Liability Company Azerbaijan Republic

| | Qeyd | 31 dekabr 2022-ci il | 31 dekabr 2021-ci il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| **Aktivlər** | | | |
| Əmlak, tikili, avadanlıq və qeyri-maddi aktivlər | 7 | 6,349,455 | 7,646,649 |
| **Cəmi uzunmüddətli aktivlər** | | **6,349,455** | **7,646,649** |
| **Qısa müddətli aktivlər** | | | |
| Transfer edilməsi gözlənilən uzunmüddətli aktivlər | 8 | 31,140,727 | 31,140,727 |
| Mal-material ehtiyatları | 9 | 142,903 | 123,785 |
| Ticarət və digər debitor borcları | 10 | 705,744 | 1,684,381 |
| Əlaqəli tərəflərə verilən borclar | 11 | 2,000,000 | - |
| Digər aktivlər | 12 | 582,301 | 27,854 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 13 | 6,758,109 | 3,326,267 |
| **Cəmi qısamüddətli aktivlər** | | **41,329,784** | **36,303,014** |
| **Cəmi aktivlər** | | **47,679,239** | **43,949,663** |
| **Öhdəliklər və kapital** | | | |
| **Öhdəliklər** | | | |
| **Qısa müddətli öhdəliklər** | | | |
| Ticarət və digər kreditor borcları | 14 | 327,787 | 58,067 |
| **Cəmi qısamüddətli öhdəliklər** | | **327,787** | **58,067** |
| **Cəmi öhdəliklər** | | **327,787** | **58,067** |
| **Kapital** | | | |
| Dövlət büdcəsi ilə hesablaşmalar | 15 | 6,577,990 | 344,629 |
| Dövlət layihələri üzrə ödənişlər | 15 | (4,695,350) | - |
| Yenidən qiymətləndirmə ehtiyatı | 16 | 20,344,524 | 20,344,524 |
| Nizamnamə kapitalı | 17 | 6,228,052 | 6,228,052 |
| Əvəzsiz kapital qoyuluşu | 17 | 27,152,723 | 27,152,723 |
| Yığılmış zərər | | (8,256,487) | (10,178,332) |
| **Cəmi kapital** | | **47,351,452** | **43,891,596** |
| **Cəmi öhdəliklər və kapital** | | **47,679,239** | **43,949,663** |

25 aprel 2023-cü il tarixində Rəhbərlik adından təsdiq edilmiş və imzalanmışdır.

**Emin Aşurov**
**İdarə Heyəti sədrinin müavini vəzifəsini müvəqqəti icra edən**

**Amid Ulubəyov**
**Maliyyə departamentinin müdiri**

| | Qeyd | 31 dekabr 2022-ci il tarixində bitən il | 31 dekabr 2021-ci il tarixində bitən il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| Kommersiya fəaliyyətindən əldə edilən gəlir | 18 | 6,822,828 | 6,715,059 |
| **Cəmi əsas fəaliyyətdən gəlir** | | **6,822,828** | **6,715,059** |
| Digər gəlirlər | 19 | 7,248,912 | - |
| Əməliyyat xərcləri | 20 | (6,413,791) | (9,072,403) |
| İnzibati xərclər | 21 | (4,507,104) | (2,938,850) |
| **Əməliyyat zərəri** | | **3,150,845** | **(5,296,194)** |
| Məzənnə fərqindən yaranan zərər | | - | (4,793) |
| **Mənfəət vergisindən əvvəl mənfəət /(zərər)** | | **3,150,845** | **(5,300,987)** |
| Mənfəət vergisi xərci | 22 | (1,229,000) | (156,881) |
| **İl üzrə mənfəət/(zərər)** | | **1,921,845** | **(5,457,868)** |
| Yenidən qiymətləndirmədən gəlir | | - | 20,344,524 |
| **İl üzrə cəmi məcmu mənfəət/(zərər)** | | **1,921,845** | **14,886,656** |

25 aprel 2023-cü il tarixində Rəhbərlik adından təsdiq edilmiş və imzalanmışdır.

**Emin Aşurov**
**İdarə Heyəti sədrinin müavini vəzifəsini müvəqqəti icra edən**

**Amid Ulubəyov**
**Maliyyə departamentinin müdiri**

| | Dövlət büdcəsi ilə hesablaşmalar | Yığılmış zərər | Əvəzsiz kapital qoyuluşu | Nizamnamə kapitalı | Yenidən qiymətləndirmə ehtiyatı | Cəmi kapital |
|---|---|---|---|---|---|---|
| **1 yanvar 2022-ci il tarixinə (yenidən təqdim edilmiş)** | **344,629** | **(10,178,332)** | **27,152,723** | **6,228,052** | **20,344,524** | **43,891,596** |
| İl üzrə cəmi məcmu mənfəət | - | 1,921,845 | - | - | - | 1,921,845 |
| Dövlət büdcəsindən ayrılmış pul vəsaitləri | 6,233,361 | - | - | - | - | 6,233,361 |
| Dövlət layihələrinin həyata keçirilməsi üçün ödənilən məbləğlər | (4,695,350) | - | - | - | - | (4,695,350) |
| **31 dekabr 2022-ci il tarixinə** | **1,882,640** | **(8,256,487)** | **27,152,723** | **6,228,052** | **20,344,524** | **47,351,452** |

25 aprel 2023-cü il tarixində Rəhbərlik adından təsdiq edilmiş və imzalanmışdır.

**Emin Aşurov**
**İdarə Heyəti sədrinin müavini vəzifəsini müvəqqəti icra edən**

**Amid Ulubəyov**
**Maliyyə departamentinin müdiri**

| | Qeyd | 31 dekabr 2022-ci il tarixində bitən il | 31 dekabr 2021-ci il tarixində bitən il (yenidən təqdim edilmiş) |
|---|---|---|---|
| **Əməliyyat fəaliyyəti ilə bağlı pul axını** | | | |
| Mənfəət vergisindən əvvəl mənfəət/(zərər) | | 3,150,845 | (5,300,987) |
| Düzəlişlər: | | | |
| Amortizasiya və köhnəlmə | 7 | 1,508,279 | 1,160,862 |
| Digər kapital | 17 | - | 3,397,301 |
| Ticarət debitor borcları üzrə ehtiyat ayırmaları | 10 | 178,653 | 1,195,743 |
| Məzənnə fərqindən zərər | | - | 4,793 |
| Mal-material qalıqlarının silinməsi | 9 | - | 231,695 |
| **Əməliyyatlardan yaranan pul vəsaitləri** | | **4,837,777** | **689,407** |
| **Əməliyyat aktivlərində azalma (artma):** | | | |
| Ticarət və digər debitorlar | 10 | 799,984 | (1,053,101) |
| Mal-material ehtiyyatları | 9 | (19,117) | 67,671 |
| Digər aktivlər | 12 | (554,447) | (27,093) |
| Digər uzunmüddətli aktivlər | | - | 85,872 |
| **Əməliyyat öhdəliklərində azalma (artma):** | | | |
| Ticarət və digər kreditor borclar | 14 | 269,720 | 63,824 |
| **Əməliyyat fəaliyyətindən daxil olan/(fəaliyyətinə yönəldilmiş) pul axınları** | | **5,333,917** | **(173,420)** |
| Ödənilmiş mənfəət vergisi | | (1,229,000) | (156,881) |
| **Əməliyyat fəaliyyətindən daxil olan/(fəaliyyətinə yönəldilmiş) xalis pul axınları** | | **4,104,917** | **(330,301)** |
| **İnvestisiya fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin əldə edilməsi | 7 | (211,086) | (205,197) |
| **İnvestisiya fəaliyyətinə yönəldilmiş xalis pul axınları** | | **(211,086)** | **(205,197)** |
| **Maliyyə fəaliyyəti ilə bağlı pul axınları** | | | |
| Dövlət büdcəsindən ayrılmış vəsaitlər, xalis | 15 | 1,538,011 | 339,692 |
| Əlaqəli tərəflərə ödənilmiş vəsaitlər | 11 | (2,000,000) | - |
| Əvəzsiz kapital qoyuluşu | 17 | - | 2,324,482 |
| **Maliyyə (fəaliyyətinə yönəldilmiş)/fəaliyyətindən daxil olan xalis pul axınları** | | **(461,989)** | **2,664,174** |
| Məzənnə fərqindəki dəyişikliklərin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | - | (4,793) |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis artım** | | **3,431,842** | **2,123,883** |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 13 | 3,326,267 | 1,202,384 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 13 | **6,758,109** | **3,326,267** |

25 aprel 2023-cü il tarixində Rəhbərlik adından təsdiq edilmiş və imzalanmışdır.

**Emin Aşurov**
**İdarə Heyəti sədrinin müavini vəzifəsini müvəqqəti icra edən**

**Amid Ulubəyov**
**Maliyyə departamentinin müdiri**